**Azərbaycan Respublikasının Nazirlər Kabineti**

# «Gömrük ərazisindən kənar əraziyə yola düşməyə hazırlaşan nəqliyyat vasitəsinin heyət üzvlərinin, xidmətedici heyətinin, sərnişinlərinin istifadəsi və nəqliyyat vasitəsinin istismarı üçün ehtiyatlar hesab olunan malların nomenklaturası, çeşidi, miqdarı və onların gömrük rüsumlarından və vergilərdən azadolma şərtləri»nin təsdiq edilməsi haqqında

**Qərar № 324**

***Bakı şəhəri, 28 dekabr 2012-ci il***

«Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.3.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

«Gömrük ərazisindən kənar əraziyə yola düşməyə hazırlaşan nəqliyyat vasitəsinin heyət üzvlərinin, xidmətedici heyətinin, sərnişinlərinin istifadəsi və nəqliyyat vasitəsinin istismarı üçün ehtiyatlar hesab olunan malların nomenklaturası, çeşidi, miqdarı və onların gömrük rüsumlarından və vergilərdən azadolma şərtləri» təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur RASİ-ZADƏ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (31 dekabr 2012-ci il, № 294) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2012-ci il, № 12, maddə 1387) («VneshExpertService» LLC).***

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2012-ci il 28 dekabr tarixli*
*324 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

**Gömrük ərazisindən kənar əraziyə yola düşməyə hazırlaşan nəqliyyat vasitəsinin heyət üzvlərinin, xidmətedici heyətinin, sərnişinlərinin istifadəsi və nəqliyyat vasitəsinin istismarı üçün ehtiyatlar hesab olunan malların nomenklaturası, çeşidi, miqdarı və onların gömrük rüsumlarından və vergilərdən azadolma şərtləri**

***1. Ümumi müddəa***

1.1. «Gömrük ərazisindən kənar əraziyə yola düşməyə hazırlaşan nəqliyyat vasitəsinin heyət üzvlərinin, xidmətedici heyətinin, sərnişinlərinin istifadəsi və nəqliyyat vasitəsinin istismarı üçün ehtiyatlar hesab olunan malların nomenklaturası, çeşidi, miqdarı və onların gömrük rüsumlarından və vergilərdən azadolma şərtləri» (bundan sonra — Şərtlər) Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 140.1-ci maddəsinə əsasən hazırlanmışdır və gömrük ərazisindən kənar əraziyə yola düşməyə hazırlaşan nəqliyyat vasitəsinin heyət üzvlərinin, xidmətedici heyətinin, sərnişinlərinin istifadəsi və nəqliyyat vasitəsinin istismarı üçün ehtiyatlar hesab olunan malların (bundan sonra — nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan mallar) nomenklaturasını, çeşidini, miqdarını və onların qanunvericilikdə nəzərdə tutulmuş gömrük rüsumlarından və vergilərdən azadolma şərtlərini müəyyən edir.

***2. Əsas anlayışlar***

2.1. Bu Şərtlərdə istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. nəqliyyat vasitəsi — sərnişinlərin və yüklərin beynəlxalq daşınması üçün istifadə olunan hava, dəmiryol və ya dəniz nəqliyyatı vasitəsi;

2.1.2. ehtiyatlar hesab olunan mallar — hava, dəmiryol və ya dəniz nəqliyyatı vasitələrinin hərəkət zamanı istismarı və texniki təchizatı üçün lazım olan mallar (ehtiyat hissələri, avadanlıq istisna olmaqla), nəqliyyat vasitələrinin heyət üzvlərinin, xidmətedici heyətinin və sərnişinlərinin səfər zamanı ehtiyaclarının ödənilməsi üçün istifadə olunan mallar, nəqliyyat vasitələrinin xidmətedici heyəti tərəfindən nəqliyyat vasitəsinin daxilində (bortunda, vaqonunda və s.) sərnişinlərə satılması üçün nəzərdə tutulan mallar;

2.1.3. ehtiyatlar hesab olunan mallara dair sənədlər — «Beynəlxalq mülki aviasiya haqqında» Konvensiyanın və onun 9-cu və 15-ci əlavələrinin, «Beynəlxalq dəniz gəmiçiliyinin asanlaşdırılması haqqında» Konvensiyanın və onun Əlavəsinin və «Beynəlxalq dəmiryolu yük daşımaları haqqında» Sazişin 7-ci maddəsinin tələblərinə uyğun olaraq tərtib edilən və nəqliyyat vasitələrində istifadə və istismar üçün ehtiyatlar hesab olunan malların nomenklaturasını, çeşidini və miqdarını özündə əks etdirən «uçuş tapşırığı», «gəmi ehtiyatları haqqında arayış» və ya «dəmiryolu qaiməsi».

***3. Nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan malların nomenklaturası, çeşidi və miqdarı***

3.1. Nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan malların nomenklaturası nəqliyyat vasitəsinin növündən asılı olaraq aşağıdakılardan ibarətdir:

3.1.1. hava, dəmiryol və dəniz nəqliyyatının konstruktiv və hərəkət xüsusiyyətləri nəzərə alınmaqla, gömrük ərazisindən kənar əraziyə hərəkəti zamanı istifadə olunan və texniki təchizat üçün lazım olan mallar, o cümlədən yanacaq və sürtgü məhsulları;

3.1.2. nəqliyyat vasitəsinin heyət üzvlərinin, xidmətedici heyətinin və sərnişinlərinin qidalanması və sanitariya-gigiyenik ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan mallar;

3.1.3. səyahət zamanı sərnişinlərə nəqliyyat vasitəsinin daxilində satılması üçün nəzərdə tutulan mallar.

3.2. Bu Şərtlərin 3.1-ci bəndində nəzərdə tutulan nomenklaturaya uyğun olaraq nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan malların çeşidi aşağıdakılar əsasında müəyyən edilir:

3.2.1. nəqliyyat vasitəsinin konstruktiv xüsusiyyətləri və texniki göstəriciləri;

3.2.2. nəqliyyat vasitəsində xidmətedici heyət tərəfindən sərnişinlərə göstərilən xidmət;

3.2.3. sərnişinlərin ehtiyaclarının ödənilməsi üçün satılan mallar.

3.3. Bu Şərtlərin 3.2-ci bəndində nəzərdə tutulan çeşidə uyğun olaraq, nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan malların miqdarı aşağıdakılar əsasında müəyyən edilir:

3.3.1. nəqliyyat vasitəsinin hərəkəti zamanı qət olunacaq məsafənin uzunluğu və müddəti;

3.3.2. qət olunan məsafə və müddət nəzərə alınmaqla, heyət üzvlərinin, xidmətedici heyətin və sərnişinlərin sayı və tələbatı.

***4. Nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan malların gömrük rüsumlarından və vergilərdən azadolma şərtləri***

4.1. Nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan mallar onlara dair sənədlərin gömrük orqanlarına təqdim olunması və bu Şərtlərin 3.1-3.3-cü bəndlərində göstərilən tələblərə riayət edilməsi şərtilə gömrük rüsumlarından və vergilərdən azad olunurlar.

***5. Nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan mallara dair sənədlərin gömrük orqanlarına təqdim edilməsi***

5.1. Gömrük nəzarətinin həyata keçirilməsi məqsədi ilə nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan mallara dair sənədlər gömrük orqanlarına təqdim edilir.

5.2. Bu Şərtlərin 5.1-ci bəndində nəzərdə tutulan sənədlər gömrük orqanlarına nəqliyyat vasitəsinin yola düşdüyü zaman təqdim edilməlidir. Gömrük nəzarətinin asanlaşdırılması və tezləşdirilməsi məqsədi ilə həmin sənədlər nəqliyyat vasitəsi yola düşməzdən əvvəl də təqdim oluna bilər.

5.3. Gömrük nəzarəti zamanı bu Şərtlərin 3-cü hissəsində nəzərdə tutulan tələblərə riayət olunmaması barədə kifayət qədər əsaslar olduqda, gömrük orqanlarının vəzifəli şəxsləri nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan malların nomenklaturasının, çeşidinin və miqdarının təqdim olunmuş sənədlərə uyğunluğunu yoxlayırlar.

5.4. Nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatlar hesab olunan malların gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanının vəzifəli şəxsi gömrük nəzarətini həyata keçirdikdən sonra onlara dair sənədləri imzası və möhürü ilə təsdiq edir.